**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

Təsdiq edirəm
Tədrisin təşkili və təlim
texnologiyaları üzrə prorektor v.i.e.
dos. Zaur Məmmədov
"30" 01 2025-ci il

# Fənn sillabusu

**İxtisas:** 050310-Muzey, arxiv işi və abidələrin qorunması
**Fakültə:** Tarix-coğrafiya və incəsənət
**Kafedra:** Tarix və onun tədrisi metodikası
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı:** S/f Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istisması (LDU-nun Tarix və onun tedrisi metodikası kafedrasının 09.02.2022-ci il tarixli qərarı ilə təsdiq edilmişdir (Protokol N7).
**Kodu:** İPFS-B03
**Tədris ili:** III (2025-2026) Semestr I
**Tədris yükü:** 60 saat. Auditoriya yükü (10 saat mühazirə, 10 saat seminar)
**Təhsilalma forması:** Qiyabi
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 6 kredit
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı , elmi dərəcəsi :** dos.Müşfiq Cabir oğlu Bayramov
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov küçəsi, 21, 2 saylı tədris korpusu
**Məsləhət saatı:** I gün:saat $14^{00}$-$16^{00}$
**E-mail ünvanı:** mushfiq76@mail.ru
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas ədəbiyyat**


1.Y. Eyvazova Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı. Dərs vəsaiti, Bakı, 2010.
2.R. Ağayev, S. Əmirxanov, A. Əlizadə; Azərb. Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Muzeyşünaslıq dərslik.Bakı, 2002.
3. Azərbaycan Respublikasının "Tarix və mədəniyyət abidələrinin qorunması" haqqında Qanunu. Bakı 13. 07.1998.
4. Azerbaycan Respublikası ərazisində dövlət muhafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü. Bakı 2001, 202 səh.


**Əlavə ədəbiyyat**


5.Azərbaycanın tarixi-memarliq abidələri *(məlumat kitabçası)*. Bakı, 2008.
6.Azərbaycanın tarixi abidələri Bakı, AEA. 1958.
7.Azərbaycan Respublikasının Tarix və mədəniyyət abidələrinin mühafizəsi cəmiyyətinin Nizamnaməsi. Bakı, 1983.


**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən Muzeyşünaslıq fənninin tədrisi vacibdir.
**V.Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:** Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı fənnində qanunvericilik aktlarında tarix və mədəniyyət abidələrinə verilən tərif, abidə anlayışı, məzmunu və mahiyyəti, mədəni və mənəvi dəyərlər, mədəni irs anlayışı, muzeydənkənar abidələrin kateqoriyaları, onların mühafizəsi sahəsində həyata keçirilən elmi və texniki tədbirlər, muzeydənkənar abidələrin köhnəlməsi, dağılması və itməsinin səbəbləri, Azərbaycanda muzeydənkənar abidələri, onların öyrənilməsi, qorunması və mühafizəsi, bu sahədə beynəlxalq təşkilatların fəaliyyəti və s. məsələlər öyrənilir. Fənnin tədris olunmasında əsas məqsəd Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisasında oxuyan tələbələri dünyanın qədim mədəniyyət mərkəzlərindən biri olan Azərbaycan torpağında ata babalarımız tərəfindən tarixin müxtəlif inkişaf mərhələlərində yaradılmış muzeydənkənar tarix və mədəniyyət abidələri ilə tanış etmək, Muzeydənkənar abidələrin üzə çıxarılması və qeydiyyatı, əhəmiyyət dərəcələrinə görə abidələrin təsnifatı, daşınar və daşınmaz abidələr və onları kateqoriyaları və s. haqqında biliklər verməkdir.

CamScanner ilə skan edilib

**Davamiyyətə verilən tələblər:** : Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə, 30 bal kollokviumların nəticələrinə görə. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir.*

*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.*

-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam - intizam qaydalarını pozduqda onun haqqında əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim mövzu planı:** 10 saat mühazirə, 10 saat seminar

| № | Keçirilən mühazirə və seminar mövzularının məzmunu | Müh. | Sem. |
|---|---|---|---|
| 1 | **Fənninin predmeti, məqsədi və vəzifələri.**<br>**Plan:**<br>1.Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı fənninin predmeti, məqsədi.<br>2.Tarix və mədəniyyət abidələri anlayışı və təsnifatı.Abidə anlayışı, məzmunu və mahiyyəti.Mədəni və mənəvi dəyərlər<br>3.Muzeydənkənar abidələrin qorunması sahəsində qəbul olunmuş hüquqi normativ sənədlər<br>**Mənbə:** [1, s.6-7] | 2 | 2 |
| 2 | **Muzeydənkənar abidələrin təsnifati və kateqoriyaları**<br>**Plan:**<br>1.Muzeydənkənar abidələrin təsnifatı.<br>2.Muzeydənkənar abidələrin kateqoriyaları<br>**Mənbə:** [1. s.22-36; 2, s.398-399.] | 2 | 2 |
| 3 | **Muzeydənkənar abidələrin dağılmasının səbəbləri və mühafizəsi sahəsində həyata keçirilən elmi və texniki tədbirlər**<br>**Plan:**<br>1.Muzeydənkənar abidələrə ətraf muhitin aqressiv təsiri. | 2 | 2 |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | 2.Muzeydənkənar abidələrin köhnəlməsində bioloji və antropogen amillərin təsiri<br>3.Muzeydənkənar abidələrin mühafizəsi və istismarı üzrə profilaktik tədbirlər və kompleks planlar.<br>**Mənbə:** [1, s.39-45] | | |
| 4 | **Muzeydənkənar abidələrin qeydiyyatı, mədəni dəyərinin müəyyənləşdirilməsinin elmi əsasları**<br>**Plan:**<br>1.Muzeydənkənar abidələrin qeydiyyatı, daşınmaz muzeydənkənar abidələrin pasportlaşdırılması.<br>2.Muzeydənkənar abidələrin tarixi və mədəni dəyərinin müəyyənləşdirilməsi<br>3.Muzeydənkənar abidələrin konservasiyası, bərpası və faydalı məqsədlər üçün abidələrin uyğunlaşdırılması<br>**Mənbə:** [1, s.48-59] | 2 | 2 |
| 5 | **Muzeydənkənar abidələrin mühafizəsi və istismari üzrə beynəlxalq təşkilatların fəaliyyəti**<br>**Plan:**<br>1.YUNESKO-təhsil, elm və mədəniyyət məsələləri üzrə Birləşmiş Təşkilat Muzeydənkənar abidələrin mühafizəsi və istismarı sahəsində fəaliyyəti.<br>2.İKOMOS-YUNESKO-nun abidə və diqqətəlayiq baxımlı yerlərin məsələləri üzrə Beynəlxalq Şurasının, abidələrin mühafizəsi və istismarı sahəsində fəaliyyəti.<br>3.UKROM - Mədəni dəyərlərin Qorunması və Bərpası üzrə Beynəlxalq Araşdırmalar Mərkəzi, onun abidələrin mühafizəsi sahəsində fəaliyyəti.<br>4.Azərbaycanın muzeydənkənar abidələri<br>**Mənbə:** [1, s.119-132] | 2 | 2 |

**XI Fənn üzrə tələblər:**

Tarix və mədəniyyət abidələri anlayışı və təsnifatını, daşinar və daşinmaz abidələri, abidələrin köhnəlməsi, dağilmasi və itməsinin səbəblərini; abidələrin üzə çixarilmasi və qeydiyyatını, abidələrin tarixi və mədəni dəyərinin müəyyənləşdirilməsini, abidələrin mühafizəsi və istismari üzrə beynəlxalq təşkilatlarin fəaliyyətini, abidələrin konservasiya, bərpa və rekonstruksiyasını öyrənmək

**XII Fənn üzrə təlim nəticələri:**

- Müasir mərhələdə respublika və dünyada muzey mühitində fəaliyyət göstərən bərpa, konservasiya və ekspertiza mərkəzlərinin təcrübəsinin istifadəsi, həmçinin müstəqil bərpa və ekspertiza laboratoriyaların fəaliyyəti, bərpaçıların səlahiyyətləri, metodların tətbiqi
- Bərpa işinin tarixi əsasları, fərqli tarixi mərhələlərdə və regionlarda formalaşma xüsusiyyətləri fənnə dair nəzəri biliklərin bazası bilinməli.
- Tarixi mədəniyyət abidələrinin təbliği, qorunması və öyrənilməsi, beynəlmiləlçilik xüsusiyyətləri aşılanmalı
- Yetişməkdə olan gənc nəslin formalaşmasında, onların əxlaqitərbiyəvi, estetik hisslərinin inkişafında mühüm rol oynayan tarixi abidələrin əsas yeri göstərilməli
- Tarixi abidələrin yaranmasi, muzey kimi fəaliyyətinin elmi-tədqiqi, ictimai mərhələləri, nəzəri əsasları, metodu, metodoloji əsasları, qanunauyğunluqları, qanunları və prinsipləri bilmək

**XIII Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV Kollekvium sualları:**

1. Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı fənninin predmeti, məqsədi və vəzifələri
2. Dəyər və abidə anlayışları və onların mahiyyəti
3. Muzeydənkənar abidələrin qorunması sahəsində qəbul olunmuş hüquqi normativ sənədlər
4. Muzeydənkənar abidələrin təsnifatı
5. Daşınar muzeydənkənar abidələr
6. Muzeydənkənar abidələrin kateqoriyaları
7. Ölkə əhəmiyyətli abidələr
8. Dünya əhəmiyyətli abidələr

CamScanner ilə skan edilib

9. Yerli əhəmiyyətli abidələr
10. Muzeydənkənar abidələrin köhnəlməsi, dağılması və itməsinin səbəbləri

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XV. Fənn üzrə imtahan sualları:**

1. Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı fənninin predmeti, məqsədi və vəzifələri
2. Dəyər və abidə anlayışları və onların mahiyyəti
3. Muzeydənkənar abidələrin qorunması sahəsində qəbul olunmuş hüquqi normativ sənədlər
4. Muzeydənkənar abidələrin təsnifatı
5. Daşınar muzeydənkənar abidələr
6. Muzeydənkənar abidələrin kateqoriyaları
7. Ölkə əhəmiyyətli abidələr
8. Dünya əhəmiyyətli abidələr
9. Yerli əhəmiyyətli abidələr
10. Muzeydənkənar abidələrin köhnəlməsi, dağılması və itməsinin səbəbləri
11. Muzeydənkənar abidələrin köhnəlməsində bioloji və antropogen amillərin təsiri
12. Muzeydənkənar abidələrin mühafizəsi
13. Muzeydənkənar abidələr, hərbi mühit və sosial amillər
14. Müzeydənkənar abidələrin elmi invertarlaşdırılması
15. Muzeydənkənar abidələrin elmi tədqiqinin məqsədi
16. Mədəni dəyərlərin toplanması
17. Daşınmaz muzeydənkənar abidələrin pasportlaşdırılması
18. Muzeydənkənar abidələrin dövlət siyahısı
19. Muzeydənkənar abidələrin konservasiyası
20. Muzeydənkənar daşınmaz abidələrin bərpası
21. YUNESKO-təhsil, elm və mədəniyyət məsələləri üzrə Birləşmiş Təşkilatının Muzeydənkənar abidələrin mühafizəsi və istismarı sahəsində fəaliyyəti .
22. İKOMOS-YUNESKO-nun abidə və diqqətəlayiq baxımlı yerlərin məsələləri üzrə Beynəlxalq şurasının muzeydənkənar abidələrin mühafizəsi və istismarı sahəsində fəaliyyəti
23. UKROM - Mədəni dəyərlərin Qorunması və Bərpası üzrə Beynəlxalq Araşdırmalar Mərkəzinin muzeydənkənar abidələrin mühafizəsi sahəsində fəaliyyəti
24. Azərbaycan dövlətiinin muzeydənkənar abidələrin qorunması və mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığı
25. Afina xartiyası
26. Azərbaycan dövlətiinin muzeydənkənar abidələri
27. Azərbaycanın memarlıq abidələri
28. Azərbaycanın qayaüstü rəsmləri
29. Azərbaycanın yaşayış yerləri, körpülər
30. Azərbaycanın dini tikililər, dəfinələr

S/f Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı fənninin sillabusu 050310 Muzey, arxiv işi və abidələrin qorunması ixtisası (proqramı) üzrə tədris planı və fənn proqaqmı əsasında tərtib edilmişdir. "Tarix və onun tədrisi metodikası" kafedrasında müzakirə edilərək təsdiq edilmişdir (28 aprel 2025-ci il, protokol № 10 ).

**Kafedra müdiri :** ____________ **dos. K.F.Mahmudov**

**Fənn müəllimi :** ____________ **dos.M.C.Bayramov**

CamScanner ilə skan edilib